Ədəbiyyat QƏZETİ

## Anım

# Mənim gördüyüm Vaqif İbrahim

Həyatın elə qəribə məqamları olur ki, heç vaxt yaddan çıxmır, unudulmur. Xəyal məni belə məqamlardan birinə qaytardı, ötən şirin günləri xatırladım. Və əlimə götürdüm Masallı rayonunda çıxan "Çağırış" qəzetinin 24 fevral 1977-ci il tarixli sayını. Solub-saralmış yarpaq kimidir - 32 il bundan qabaq çap edilib. Qəzetdə sevimli, cavan ikən dünyasını dəyişmiş şairimiz Vaqif İbrahimlə şagirdlərin görüşündən bəhs edilir.



Yeddioymaq kənd orta məktəbində onuncu sinifdə oxuyurduq. Bizə dedilər ki, böyük siniflərdən birini görüşə hazırlamaq lazımdır. "Göyərçin" jurnalının məsul katibi, şair Vaqif İbrahim və həmyerlimiz, yazıçı-jurnalist Ağəddin Mansurzadə qonağımız olacaq.

Mən bilirdim ki, Vaqif İbrahim Ümumittifaq Lenin komsomolu və M.Qorki adına Ümumittifaq mükafatları laureatıdır. "Ömür balladası", "Dünyanın keşiyində", "Baykal - Amur magistralı", "Bu torpaqda doğulanlar", "Mehribanlıq işığı" və s. kitabların müəllifidir.

Nəhayət, müəllim və şagird kollektivi ilə görüş başlandı. Məktəbin direktoru Təvəkkül Məmiyev V.İbrahimin, həmçinin A.Mansurzadənin yaradıcılığı barədə danışdı. Sonra söz V.İbrahimə verildi. Onun Baykal - Amur magistralı haqqındakı xatirələri maraqla qarşılandı. Təzə şeirlərini oxuması indiki kimi yadımdadır. Sadə təbiətli, fağır görkəmli bir adam idi. Mənim diqqətim bu adamda qalmışdı. Onların yaradıcılıq planları ilə tanış olduq, ədəbiyyat həvəskarları Xaləddin Nurullayev, Bəhmən Ağayev və başqaları çıxış etdilər və bu barədə bu sətirlərin müəllifinin yerli rayon qəzetində "Maraqlı görüş" məqaləsi dərc olundu.

Bir neçə il sonra "Azərbaycan gəncləri" qəzetində V.İbrahim haqqında nekroloq oxudum: O, 1983-cü ildə avtomobil qəzasına düşüb vəfat etmişdi. Yaşadığı Sumqayıt şəhərində dəfn olunmuşdu.

İndi mən qədirbilən oxuculara V.İbrahimin iki gözəl şerini təqdim edirəm. "Çağırış" qəzetinin 26 fevral 1980-ci il tarixli nömrəsində dərc olunan bu şeirlər V.İbrahimin heç bir kitabına düşməyib. Əlbəttə, bu mənim ədəbi axtarışım deyil, adi oxucu marağımdır. Həmişəcavan şairimizə Allah rəhmət eləsin!

**Əlihüseyn Şükürov**
*Murmansk vilayəti*

*Vaqif İbrahim*

### İlk ayrılıq

Təpədən-dırnağa hicran qəmiyəm,
Duyduqca qəlbimdən ötüb keçəni.
Şaxtadan don vurmuş ağac kimiyəm,
Sənin soyuqluğun yandırıb məni.

Hərdən istəyirəm, istəyirəm mən,
Bir də o günlərə qayıdam, dönəm.
Özün de, nə çıxar xatirələrdən?
Od sönüb, kül ilə oynayan mənəm.

Qalıb qəlpə kimi qəm ürəyimdə,
İlk eşq - başdan-başa
dərdi-sər imiş.
Səni tapmağım da, itirməyim də
Bir şimşək ömrünə bərabər imiş.
Ayrılıb
dönmüşük bir cüt relsə biz,
Ömür də yanıdır, gün də yanıdır.
İndi üstümüzdən şütüyüb keçən
Qəm,
hicran
Ayrılıq qatarlarıdır.

Fəqət ürəyimdə qalıb kül kimi
Xatirə dünənim - solan çəmənim.
Kitab arasında solan gül kimi
Solur ürəyimdə ilk sevgim mənim...

### Niyə görüşdürdü təsadüf bizi

Əgər bu ayrılıq vardısa onda,
Gərək ayrılaydıq
Bir-birimizi
Başa düşməyəndə, anlamayanda.
Yaxın düşməsəydim sevən könlünə,
Səndən ayrılmağa axı nə vardı?
Bilirsən, əzizim, o zaman mənə
Səni unutmaq da asan olardı.

İndi yaşayırdım qəmindən uzaq,
Özüm də,
könlüm də,
qulağım da dinc...
De nəyə gərəkmiş qəminə ortaq -
Eniylə uzunu görünən sevinc?

Ayrılıq daha çox sarsıdır bizi -
Gənclik köç edəndə, yaş ötüşəndə.
Çətindir ayrılmaq -
Bir-birimizi
Yaxından anlayıb, başa düşəndə...

# Cənubi Azərbaycan ədəbiyyatı tarixinin birinci cildi capdan çıxmışdır

Bu günlərdə "Nurlar" nəşriyyatı Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin hazırladığı kitabın birinci cildini çapdan buraxmışdır. Bu cilddə Gülüstan müqaviləsindən sonra Cənubi Azərbaycanda XIX əsrdə yaranan ədəbiyyat öz əksini tapmışdır. Cild geniş icmal ocerklər və ədəbi portretlər şəklində qurulmuşdur. Cildin qiymətli cəhətlərindən biri orada XIX əsr Cənubi Azərbaycan və qismən İran maarifciliyinə ilk dəfə olaraq geniş yer verilməsidir. Kitabda Cənubda kitab çapı, məktəb işi, folklor, xalq sənətləri, mətbut, qonşu ölkələrlə, Bakı və Tiflis mühiti ilə ədəbi əlaqələr əhatəli şəkildə əks olunur. Görkəmli maarifçilər Mirzə Ağa Təbrizi, Zeynalabdin Marağalı, Əbdürrəhman Talıbov haqqında portret ocerklər verilir. Professor Teymur Əhmədovun oçerkində M.F.Axundovun Cənubi Azərbaycan ədəbiyyatı təsiri işıqlanır, mərhum prosessor Xeyrulla Əliyevin icmai ocerkində isə "Əkinçi"nin cənublu müxbirlərinin fəaliyyəti haqqında geniş və yeni məlumatlar verilir.




Cilddə Əndəlib Qaracadaği, Heyran xanım, Əbülqasim Nəbati, Məhəmməd Bağır Xalxali, Mirzə Mehdi Şikuhi, Əbülhəsən Raci haqqında da portret ocerklər vardır. Oçerklərin müəllifləri arasında Hüseyn Kürdoğlu, M.Müciri, Məmmədəli Müsəddiq, Arif Hacıyev, Əflatun Məmmədov, Nazim Rizvan, Əbülfəzl Hüseyni, Rəfiqə Qasımova, Rəhim Əliyev, Xuraman Quliyeva və b. vardır.

Kitaba redaksiya heyəti adından ön söz, adlar göstəricisi, ədəbiyyat siyahısı da əlavə edilmişdir. Cildin sponsoru Xaricdəki həmvətənlərlə iş üzrə Dövlət Komitəsidir.

# MƏR-in Mədəniyyət Mərkəzində

Misir Ərəb Respublikasının Bakıdakı Mədəniyyət Mərkəzində 2009-cu ildə Respublikamızın paytaxtının İslam mədəniyyətinin mərkəzi elan olunması münasibətilə tədbir keçirildi. Qurumun mədəniyyət üzrə attaşesi dok. İmam Bağdadi yığıncağın ümumi məramı haqqında məlumat verdikdən sonra Mərkəzin direktoru professor dr. Adel Darviş çıxış edərək Azərbaycanın Şərqdə, eləcə də müsəlman ölkələri arasında önəmli yer tutduğunu xatırlatdı, Bakının İslam mədəniyyətinin paytaxtı elan olunmasını qanunauyğun hal kimi dəyərləndirdi. O dedi: "...YUNESCO təşkilatının Beynəxalq İrs Siyahısına İçərişəhər, Şirvanşahlar sarayı kompleksləri və Qız qalası daxil edilmişdir. Bakının İslam mədəniyyətinin paytaxtı seçilməsi bu qədim şəhərin muasirlik və orijinallıqla, eləcə də şanşöhrətlə dolu olan tarixinin böyük göstəricisidir. Belə ki, Bakı bu il beynəlxalq dialoqun qovşağı hesab edilib."

Tədbirdə akademik Vasim Məmmədəliyevin çıxışı böyük maraq doğurdu. O, yeddinci əsrin ortalarında islamı qəbul edən, ondan bəhrələnən azərbaycanlıların müsəlman mədəniyyətinə verdiyi töhfələrdən söhbət açdı, ərəbcə Divan bağlayan şairlərimizi xatırlatdı, həmin şairlərin islam təfəkküründən qidalandığını önə çəkdi. Görkəmli ərəbşünas İmamverdi Həmidovun bu sahədəki əməyini diqqətə çatdırdı. Vasim müəllim İslam sivilizasiyasında xidmətləri olan memarlarımızı, mütəfəkkirlərimizi də unutmadı. Belə bir xalqın yaratdığı dövlətin paytaxtının İslam mədəniyyətinin paytaxtı seçilməsini qanunauyğun hal saydı.

Tanınmış ziyalıların, alimlərin, sənət xadimlərinin, ərəb ölkələrinin respublikamızdakı səfirlərinin, diplomatik işçilərin iştirak etdiyi məclisdə Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri Saber Mansour, Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Fikrət Babayev, Misirin Ayn-Şəms Universitetinin professoru Tarek Şələbi və başqaları çıxış edərək ölkəmizdəki İslam abidələrindən, İslam ölkələri ilə respublikamızın əlaqələrindən, milli və dini dəyərləri qoruyub saxlamağın vacibliyindən söhbət açdılar.

**A.Hacıbabayev**

## Bildirişlər

**Oktyabrın 27-də** saat 14-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda yazıçı Şəlalə Həsənlinin "Qərbi Azərbaycan həqiqətləri internetdə" saytının təqdimatı keçiriləcək.

**Oktyabrın 28-də** saat 12-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda yazıçı Seyran Səxavətin "Bəhanə" və "Yəhudi əlifbası" kitablarının təqdimatı, saat 13-də "Bayatı" kitab mağazasında Seyran Səxavətin imza günü keçiriləcək.

**Oktyabrın 28-də** saat 14-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Allahverdi Eminovun "İsmayıl Şıxlının poetikası" kitabının təqdimatı keçiriləcək.

**Oktyabrın 30-da** saat 14-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda şair Qəşəm Nəcəfzadənin 50 illik yubileyinə həsr olunmuş tədbir keçiriləcək.

*Maraqlananlar dəvət olunur*

# "Göyərçin"in kitabxanası

"Göyərçin"in kitabxanası seriyasından növbəti say ulu yurd yerlərimizə həsr olunmuşdur. Kiçik yaşlılar bu sayda "Qobustan", "Azıx mağarası", "Gəmiqaya", "Beyləqan", "Naxçıvan", "Şamaxı", "Dərbənd", "Bərdə", "Qəbələ", "Çardaqlı", "Şabran", "Şortəpə", "Astabad", "Ağbil türbələri" adlı yazılarda bir çox şəhərlərimizin və tarixi abidələrimizin haqqında məlumatlarla, onlar barəsindəki rəvayətlərlə tanış ola bilərlər.



"Abşeron abidələri" məqaləsində isə bu yarımadada aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılan yazılardan söhbət açılır. Bilgəh, Nardaran, Mərdəkan, Şüvəlan, Şağan, Türkan, Ramana kəndlərində yerləşən bu tarixi miraslar xalqımızın adət və ənənələrini öyrənmək baxımından maraq doğurur.

"Ulu yurd yerləri" adlanan "Göyərçin"in bu sayındakı məqalələrin müəllifi Rafiq Yusifoğlu, rəssamları Ənvər, Oqtay, Leyla, Afər, Kübra, Ramil, Aytən, Mətanət və Altaydır.

**A.Xiləli**

# Bu, elə həmin molladı

*Atababa İsmayıloğlu. "Molla Qeybullanın sərgüzəştləri". "UniPrint" - 2009*




Molla Qeybullanın arvadının söyüşlərinə cavab vermədiyini görən qonşu irad tutur ki, bayaqdan atanı söyən qadına niyə cavab vermirsən. Molla cavabını yubatmır: "Elə ataya o da azdı".

Qonşunun "Atan nə edib ki?" - sualına mollanın cavabı da hazırdı: "Elçiliyə o gedib, daha nə edəcəkdi ki..."

Atababa İsmayıloğlunun "Molla Qeybullanın sərgüzəştləri" kitabının təkrar nəşrində toplanan lətifələr müxtəlif mövzu və məzmunda olsa da, hamısında belə yığcamlıq, lakoniklik üst qatdadı. Oxuyanda ki, mollanın "Hamı namaza, hamı namaza" çağırışına camaat yığıldıqdan sonra arvadının "A kişi, bir az yavaş çığır, kürəkən yatıb" - xatırlatmasından cinlənən molla "Elə kürəkən köpəkoğlunu namaza çağırmaq üçün qışqırıram" - cavabını verir. Görünür Qeybulla əmi haradasa rəhmətlik Molla Nəsrəddinin köynəyindən keçib gələnlərdəndi. Belə olmasaydı cavanların "İnsan Adəmin, yoxsa peyğəmbərin övladıdı?" - sualına Molla Qeybulla əmin-arxayınlıqla cavab verməzdi: "Çalış ananın qılığına gir, əsl həqiqəti o sənə deyər".

Kitaba daxil edilən "Yaxşı ki, babanı tanıdın", "Uzanan yerdə gedəcəyəm", "Ən böyük dərd", "Mən də bilirəm", "Ətin cavanını tapın", "Sonra da deyəsən ki, kim öldürdü" və s. lətifələr də yığcamlığı, eyni zamanda, ifadə etdiyi dərin mənasıyla seçilir.

Əsas olan odur ki, oxumağa başlayasan. Başladınmı, bitirə bilməyəcəksən. Gah dönüb yenidən oxuyacaqsan, gah da başın gülməkdən yaşarmış gözlərini silməyə qarışacaq.

**S.Aranlı**

## Repertuar

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**



24 oktyabr
*P.Çaykovski*
Qu gölü

25 oktyabr
*Ü.Hacıbəyov*
Leyli və Məcnun

*Saat 19-da*
Tel.: 493-31-88

**Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı**



23 oktyabr
*S.Ələsgərov*
*Ş.Qurbanov*
Milyonçunun dilənçi oğlu

24 oktyabr
*F.Sücəddinov*

*T.Vəliyeva*
Mən dəyərəm min cavana

25 oktyabr
*R.Mirişli*
*M.Haqverdiyev*
Qısqanc ürəklər

*Saat 19-da*
Tel.: 493-88-37

**S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı**



24 oktyabr
*X.Berqer*
Eşşe odin Djekson, ili perebor.

*Saat 19-da*
Tel.: 493-00-63

*Biletlər teatrların kassalarında satılır*

## "ƏQ" - 2009

"Ədəbiyyat qəzeti"nin 1 nüsxəsinin 3 aylıq qiyməti 3 manat 90 qəpik, 6 aylıq qiyməti 7 manat 80 qəpik və illik qiyməti 15 manat 60 qəpikdir.

"Ədəbiyyat qəzeti"nə mətbuat yayımı firmalarında il boyu abunə yazılmaq mümkündür.

Abunə yazılmaq üçün redaksiyaya da müraciət edə bilərsiniz.

Əlaqə telefonları: 510-88-61
Mob.: 050-685-44-61



## Allah rəhmət eləsin

Azərbaycan Yazıçılar Birliyi və Naxçıvan Yazıçılar Birliyi **Zeyqəm Vüqara**, həyat yoldaşı

**FATMA xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*Baş redaktor:* Ayaz Vəfalı
*Redaksiya heyəti:* Şirindil Alışanlı, Aqşin Babayev, Nizami Cəfərov, İsa Həbibbəyli, Hidayət, Nazim İbrahimov, Elçin İsgəndərzadə, Atababa İsmayıloğlu (məsul katib), Yusif Kərimov, İlham Qəhrəman, Əkbər Qoşalı, Bəkir Nəbiyev, Qəzənfər Paşayev, Ramiz Rövşən, Rübail, Sabir Rüstəmxanlı, Vaqif Səmədoğlu, Vasif Süleyman, Azər Turan (baş redaktor müavini)
*Təsisçilər:* Azərbaycan Yazıçılar Birliyi, "Ədəbiyyat qəzeti"nin yaradıcı əməkdaşları
"Ədəbiyyat qəzeti"nin kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Hesabımız: h/h YSM-324665 AZM-3201-01, ABB Yasamal filialı KOD 805562
*Redaksiya şurası:* Yavuz Akpinar (Türkiyə), Betti Bleyer (ABŞ), Harid Fedai (Şimali Kipr Türk Respublikası), Cavad Heyət (İran), Lüdmila Lavrova (Rusiya), Əhməd Şmide (Almaniya), Qulamrza Səbri Təbrizi (İngiltərə)



**Redaksiyanın ünvanı: Bakı - AZ 1073, Mətbuat pr. 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 9-cu mərtəbə**
Əlyazmalar geri qaytarılmır. *Qəzet cümə günü çıxır.*
Çapa imzalanmışdır: 22.10.2009 saat 22[30]
Telefonlar: baş redaktor 439-52-56, baş redaktor müavini 439-50-67, məsul katib 439-91-68, şöbələr 438-03-17. Faks: 438-85-70. E-MAIL: edebiyyatqazeti@yahoo.com
Şəhadətnamə N:186
İndeks 66800
Tiraj 2191
Sifariş 4371